# XIX əsrdə Rusiyanın Azərbaycanda təhsil siyasəti

**Adilə Rasim qızı Xəlilova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** adelya.khalil@bk.ru

**Rəyçilər:** p.ü.e.d., prof. İ.H. Cəbrayılov,
p.ü.f.d. F.M. Allahverdiyeva

**Açar sözlər:** dövlət, təhsil, cəmiyyət, təlim, maarifçilik, hökumət, dil, məktəb
**Ключевые слова:** государство, образование, общество, обучение, просвещение, правительство, язык, школа
**Key words:** state, education, society, training, enlightenment, government, language, school

Çar imperiyası müstəmləkədə saxladığı ölkələrin xalqlarının elm, təhsil sahəsində irəliləmələrinə mümkün dərəcədə mane olmağa çalışırdı. Bunun əsas səbəbi xalqların müstəqil fikrə sahib olmasının, maarifçiliyin yayılmasının imperiyanın təməlinə sarsıdıcı zərbə olacağını düşünmələri idi. Buna baxmayaraq, yüksək bilikli, maarifçilik ideyalarını yayan, millətini, vətənini, dili sevən ziyalılar qrupu yetişirdi. Yeni məktəblər, təhsil ocaqları fəaliyyətə başlayırdı. Ziyalılar isə insanları maarifləndirmək kimi şərəfli həm də məsuliyyətli bir işi yerinə yetirirdilər. Bu, heç də asan məsələ deyildi, amma onlar bilirdilər ki, bu gün səpdikləri toxumlar sabah mütləq öz bəhrəsini verəcəkdir. XIX əsrdə ilk əlli il ərzində müstəmləkəçilik siyasətinə rəğmən Azərbaycanın mədəni həyatında əksər sahələrdə yeniliklər baş vermişdi. İkinci yarısında isə inkişaf meyilləri daha geniş vüsət almışdı. İctimai-mədəni sahələrdə əhəmiyyətli dərəcədə uğurlar əldə edilmişdi. Təhsil sahəsində yeni tipli məktəblər təşkil edilmiş, mədəni-maarif mərkəzləri fəaliyyətə başlamışdı. Ziyalı qrupunu isə Qərbi Avropa və Rusiya universitetlərində oxuyan yeni-yeni yetişən kadrlar təşkil edirdi. Milli teatrın və mətbuatın əsasının qoyulması mədəni və maarifçilik yolunda atılan ilk addımlar idi. Artıq xalqda milli şüurun oyadılması istiqamətində vətənin azad ruhlu ziyalıları xalqın gələcəyi naminə məqsədyönlü fəaliyyətə başlamışdı (3).

XIX əsrin əvvəllərində Azərbaycanın torpaqlarının iki yerə bölünməsi onun tarixində dərin izlər buraxdı. Rusiya-İran müharibələrində Şimali Azərbaycanın Rusiyaya ilhaq olunması bütün sahələr kimi təhsilə də öz təsirini göstərdi. Təhsil sistemində Rusiyanın həyata keçirdiyi siyasət mahiyyət etibarilə müstəmləkəçilik siyasətini əks etdirirdi. Buna rəğmən, XIX əsr Azərbaycan təhsil tarixində əhəmiyyətli bir dövrü təşkil edir. Təlim rus dilində idi, amma müxtəlif tipli məktəblər vardı ki, bunlar istər-istəməz təhsil səviyyəsinin yüksəlməsinə təsir edirdi. İbtidai qəza məktəbləri, realnı məktəblər, gimnaziyalar, müsəlman məktəbləri, sənət məktəbləri, peşə və orta ixtisas, rus-müsəlman qız məktəbi, Azərbaycan- rus təhsil mərkəzləri və sair onlarla təhsil müəssisəsində şagirdlər təhsil ala bilirdilər. Əsrin ikinci yarısında gimnaziya, həmçinin realnı məktəbləri bitirən gənclərimizin çoxu Avropa və Rusiyanın nüfuzlu ali məktəblərində təhsil ala bilirdi.

Əsrin əvvəlində təhsil və məktəblərin inkişafında iki əsas istiqamət formalaşmışdı: adət edilən ənənəvi müsəlmanlara aid təhsil sisteminin saxlanılması və yeni tipli rus məktəblərinin təşkil edilməsi. "Zaqafqaziya məktəbləri haqqında Əsasnamə"lər 1829-cu, 1835-ci illərdə təsdiqlənmişdi. Buna uyğun olaraq ilk dövlət məktəbləri 1830-cu ildə Şuşada, 1832-ci ildə Bakı-

da, 1833-cü ildə Şəkidə, 1837-ci ildə Gəncədə, 1838-ci ildə isə Naxçıvanda və Şamaxıda fəaliyyət göstərirdi.50-ci illərdə artıq 9 rus məktəbi vardı, hansı ki, bunlardan 5- i məhz qəza məktəbi idi. Qeyd edək ki, qəza məktəbləri 3-cü sinfədək təhsili əhatə edirdi. Bu məktəblərdə əsasən, imkanlı uşaqlar təhsil alırdı. Rus və Azərbaycan dili, coğrafiya həmçinin şəriət dərsləri burada keçilirdi. XIX əsrin əvvəlində tarix elmi inkişaf etmiş sahələrdən idi.

K.A. Fateh, M. Adıgözəlbəy, M. Camal və digər ziyalılarımızın o zaman yazıb- yaratdığı tarixi əsərlər bu gün dəyərli mənbələr hesab olunur. Məlumatlarda qeyd olunur ki, 1842-ci ildə Şimali Azərbaycanda məscidlərin nəzdində 502 ibtidai məktəb fəaliyyət göstərirdi. Burada 5 mindən çox şagird təhsil alırdı. Bakıda - İçərişəhərdə fəaliyyət göstərən iki ibtidai qız məktəbində isə 25 şagird təhsil alırdı.60-cı illərdəki məktəb islahatı, həmçinin 1867-ci ildə qəbul olunan "Əsasnamə" çərçivəsində ölkədəki məktəblərin ümumi imperiya təhsil sisteminə uyğunlaşdırılmasına qərar verildi.

Dil olaraq milli dilimiz təhsil sistemindən çıxarılaraq, sərt şəkildə ruslaşdırma siyasətinə başlanıldı. Aparıcı yerdə rus dilində təlimi təşkil edən ibtidai məktəblər idi. 70-ci illərdə isə bu illik qəza məktəbləri yavaş-yavaş 6 illik şəhər məktəbləri ilə əvəz olunmağa başladı. Bunlarla bərabər, kəndlərdə fəaliyyət göstərən kənd məktəbləri də var idi. Dil və ruslaşdırma siyasətinin əsas məqsədi, əhalinin ruslaşdırılaraq imperiyaya layiqli məmurlar yetişdirmək idi. Çar hökumətinin məmurları hakimiyyət tərəfindən qoyulan siyasəti bölgələrdə elə idarə edirdilər ki, əhalini nəinki rus dilində danışmaq, hətta ruslar kimi düşünmək amalını yeridirdilər. Bu dövrdə mollaxana və mədrəsələr hələ də vəqflərin sayəsində işlərini davam etdirirdi (2, s. 41).

Əsrin əvvəllərində xalqın milli-mənəvi dəyərlərinə kəskin münasibət göstərilirdi, işlərinə bir sıra məhdudiyyətlər qoyulurdu. Buna baxmayaraq xalq arasında islami dəyərlər önəm kəsb edirdi, cəmiyyətin bütün sahələrində üstünlüyünü saxlayırdı. İmperiyanın təzyiqlərlə sosial-dini baxımdan üstünlük əldə edə bilməməsi, əksinə xalqda daha da qıcıq yaratması siyasi xəttin dəyişdirilməsinə gətirdi. Sosial-dini sferanı nəzarətdə saxlamaq məqsədilə, müsəlmanların rəğbətini qazanmaq siyasəti yürüdüldü. Məscidlərin nəzdində fəaliyyət göstərən məktəblərdə yalnız oğlanlara yazı bacarıqları öyrədilir, Quran oxuma dərsləri keçilir və riyaziyyat təlim olunurdu. Onlar təhsilin dövrün tələblərinə uyğun təşkil edilməsini tələb edirdilər. Əlbəttə ki, bütün bunlar xalqın maariflənməsi məqsədi daşıyırdı. Vətənini sevən ziyalılar gələcək nəsilləri cahil deyil, savadlı görmək üçün əllərindən gələni edirdilər. Əsrin ikinci yarısında formalaşan kapitalist münasibətləri, inkişaf edən sənaye və iqtisadiyyat yerli ixtisaslı fəhlə və mütəxəssislərə tələbat yaratdıqca mövcud ümumtəhsil və peşə məktəblərinin strukturu da genişləndirildi. Qeyd edim ki, rus-Azərbaycan məktəblərinin tarixi və inkişafı H. Mahmudbəyov və S. Qənizadənin adları ilə bağlıdır. Onlar 1887-ci ildə Bakıda "birsinifli üçüncü dərəcəli rus – tatar (Azərbaycan)" məktəbi təşkil edirlər. Bu məktəbin rus məktəblərindən fərqi Azərbaycan dilinin əsas fənn olaraq təlim edilməsi idi. Çox keçmədən Bakıda 6 belə məktəb fəaliyyətə başladı. Şəki, Şuşa, Gəncə, Salyan və Naxçıvan da daxil olmaqla bu tipli məktəblərdə 837 şagird təhsil alırdı (1, s.169).

Rus - Azərbaycan məktəbləri milli təhsil tariximizdə, xalq arasında maarifçiliyin təbliğatında və deyərdim ümumiyyətlə sonrakı illərdə müstəqil şüurun formalaşmasında müstəsna əhəmiyyətə malik idi. İlk orta məktəblər, gimnaziyalar XIX əsrin ikinci yarısında yaranmağa başladı. 1865-ci ilkə Bakıda ilk progimnaziyanın əsası qoyuldu. Bura 1867-ci ildə real gimnaziya oldu. 1871-ci ildə qəbul olunan "Gimnaziya və progimnaziyaların Nizamnaməsi"nə əsasən, gimnaziyalar klassik struktura sahib oldu, realnı gimnaziyalar isə realnı məktəblərə çevrildi. Bu cür realnı məktəblər Bakıdan sonra Şuşa və Gəncədə də fəaliyyət göstərməyə başladı. Təhsil strukturuna gəlincə, realnı progimnaziyalarda dörd əsas sinif və bir hazırlıq

sinfi vardı, gimnaziyalarda isə 7 sinif fəaliyyət göstərirdi (1, s. 191-192). Bu məktəblərdə verilən təhsil natamam orta və orta təhsil idi. Əsrin sonlarına doğru təhsil almaq istəyən 2366 kişi üçün 7 natamam orta, həmçinin orta məktəb açılmışdı.

1876-cı ildə Qori müəllimlər seminariyası fəaliyyətə başlayır. Azərbaycanda müəllimlərin yetişməsində bu məktəb xüsusi əhəmiyyətə malik olub. Bu məktəbin Azərbaycan şöbəsi 1879-cu ildə fəaliyyət göstərib. Bu məktəblərin açılması böyük nəaliyyət idi. Beləcə, təhsildə uğurlu islahata nail olunmaqla yanaşı, həm də təhsil proqramlarında müasirləşdirilmə reallaşdırılmışdı. Bu məktəblərin təsiri ilə xalqda milli şüurun oyanışına başlamışdı. Xalqımız arasında maarifçiliyin yayılmasında rolu olan ziyalı kütləsi yetişmiş, S.Ə. Şirvani kimi vətənpərvərlərin sırasına H. Zərdabi, N.B. Vəzirov, M. Sidqi, S.M. Qənizadə kimi görkəmli xadimlər qoşulmuşdu. Təhsil və maarifçilik ideyalarının yayılması özünü digər mədəniyyət sahələrinin də inkişafında göstərirdi. 1894-cü ildə Bakıda Nəriman Nərimanovun təşəbbüsü ilə kitabxana açılmışdı. Bu Azərbaycanda fəaliyyət göstərən ilk kütləvi kitabxana və qiraətxana idi.

Sosial-iqtisadi həyatdakı inkişaf xalqın mədəniyyətində də əks olunurdu. Məhz bu dövrdə anadilli məktəbin yaranması, milli mətbuatın təşəkkülü, dünyəvi teatrın təşkili milli şüuru formalaşdıran əsas amillərdən oldu. Xalqı maarifləndirmə mövzusunda əsas rol oynadı. Əlbəttə ki, ziyalılarımızın gördükləri işləri də unutmaq olmaz, elm və mədəniyyətin müxtəlif sahəsindən olan ziyalı, maarifpərvər vətəndaşlarımız mədəniyyət, elm sahəsində xalqın savadlanması yönündə əllərindən gələni edirdi, çətinliklərə baxmayaraq, məqsədlərinə nail olmağı bacarırdılar.

XIX əsrin əvvəllərində çar hökumətinin yürütdüyü əsas siyasət "parçala və hökmranlıq et" strategiyası idi. Əlbəttə ki, çar hökuməti əsarət halında saxladığı xalqın maariflənməməsi üçün əlindən gələni edirdi. Bunun ən bariz nümunəsini biz XX əsrdə repressiya hadisələrində gördük. Amma XIX əsrdə əsası qoyulan bu maarifçilik ideyalarını yaymaq böyük səbr və zəhmət tələb edirdi. Dövrün ziyalıları yaxşı bilirdilər ki, dövlətin gələcəyi onun savadlı gənclərindən asılıdır. Həmçinin, yaxşı başa düşürdülər ki, bu gün atılan hər bir addım sabahın işıqlı gələcəyinə yönəlmişdir. Elə də oldu, nə qədər istəsə də, çar hökuməti xalqı əsarətdə saxlaya bilmədi. Vətənpərvər, ziyalı oğulların maarifçilik toxumları öz bəhrəsini verdi. Sovet rejimindən sonra Azərbaycan bu gün bütün sahələrdə uğur qazanan, ən müasir standartları öz təhsilinə tətbiq edən bir dövlətdir.

**Məqalənin aktuallığı.** XIX əsr Rusiya imperiyasının təhsil siyasəti ruslaşdırma strategiyası idi. Təhsil sisteminə verdiyi diqqətin sadəcə bir səbəbi vardı: öz mənafeyinə tabe olacaq, ona xidmət edəcək kadrlar yetişdirmək. Həmin dövrdə məhz ziyalılarımızın səyi nəticəsində məktəblərdə milli ana dilini tədris etməyə nail olundu. Beləcə, bu dövrü Azərbaycan təhsil tarixində maarifçiliyin əsasının qoyulduğu dövr kimi də qiymətləndirmək olar. Məqalə də məhz həmin dövrdə Azərbaycanda təhsilin vəziyyətini öyrənmək baxımından aktual hesab edilə bilər.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, məqalə XIX əsr çar Rusiyası dövründə Azərbaycan təhsil sisteminin quruluşunu əks etdirir. Əldə olunan məlumatlar kompaktlaşdırılaraq dövrün maarif və maarifçilik ideyaları baxımından məlumatın ötürülməsində əhəmiyyət kəsb edir. Dövrün təhsil sisteminin imperiyanın hansı maraqlarına xidmət yönündə qurulması və vətənpərvər maarifçilərin təkidlə öz yollarından dönməyərək milli maarifçilik ideyalarının yayılmasını təmin etmələri əks etdirilib.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə Azərbaycan təhsil sisteminin çar Rusiyası dövründəki problemlərinin və təhsil sisteminin inkişaf mərhələlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1985, 297 s.
2. Mərdanov M.C. Azərbaycanın təhsil tarixi. Bakı: Təhsil, 2011, I cild, 295 s.
3. “XIX əsr-XX əsrin I yarısı Azərbaycan maarifçiliyi və maarifçiləri” adlı məqalələr toplusu. Bakı: Ziya, 2013, 144 s.

**А.Р. Халилова**

## Российская образовательная политика в Азербайджане в XIX веке

## Резюме

Образовательная политика Российской Империи в XIX веке была стратегией Русификации. Его внимание к системе образования было только одной причиной: готовить кадры, которые будут выполнять свою работу и служить ей. В то время усилиями интеллигенции удалось добиться преподавания национального родного языка в школах. Таким образом, этот период можно рассматривать как период, когда в истории образования Азербайджана был заложен фундамент просвещения.

**A.R. Khalilova**

## Russian educational policy in Azerbaijan in the XIX century

## Summary

The educational policy of the Russian Empire in the 19th century was a strategy of Russification. There was only one reason for his attention to the education system: to train personnel who would do their job and serve it. At that time, as a result of the efforts of intellectuals, the teaching of the national mother tongue in schools was achieved. Thus, this period can be considered as the period when the foundation of enlightenment was laid in the history of education in Azerbaijan.

**Redaksiyaya daxil olub:** 16.03.2022